BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№2 Sosial-siyasi elmlər seriyası 2013*

**UOT: 340.1; 321.01; 340.11:1**

# HÜQUQ DÜŞÜNCƏSİNİN İNKİŞAF ŞƏRTLƏRİ

**İ.H.CƏFƏROV**
***Bakı Dövlət Universiteti***
***cafarov_ilyas@mail.ru***

*Məqalədə ən əvvəl qeyd olunur ki, hal-hazırda Azərbaycan Respublikasının Konstitusiyasında və cari qanunvericiliyində müsbət hüquq düşüncəsinin əsasları təsbit olunur. Bunlar vətəndaşların hüquq düşüncəsinin, subyektiv hüquqlar, hüquqi vəzifələr və məsuliyyət haqqında düzgün mülahizələrinin, təsəvvürlərinin formalaşmasına böyük təsir göstərirlər.*

*Müəllifin fikrincə, hüquq düşüncəsinin yüksək səviyyəsi yalnız hüquqların genişliyi və təminatı, hüquq tətbiqetmə fəaliyyətinin mütəşəkkil təşkil olunması ilə deyil, həmçinin hüquqi təhsilin və tərbiyənin vəziyyəti ilə şərtlənir.*

**Açar sözlər:** düşüncə, hüquqi, inkişaf, insan, sosial, tənzimləmə, formalaşma, mədəniyyət

Müasir dövrdə hər bir milli hüquq sisteminin əsasında insanın təbii hüquqları qismində ümumbəşəri dəyərlərin tanınması durur. Bununla yanaşı qeyd etmək lazımdır ki, "hüquqi dövlətin formalaşması, dövlət hakimiyyəti sisteminin möhkəmləndirilməsi hüququn müəyyən səviyyəsi olmadan mümkün deyil" (1, 4). "Əgər vətəndaş müvafiq vəziyyətlərdə hər hansı bir aktiv hərəkətdən imtina edirsə, yəni praktik olaraq Konstitusiyada təsbit olunmuş vətəndaş məsuliyyətindən boyun qaçırırsa, bilavasitə qanun və qaydalara nəzarət etmək üçün xüsusi institutların, müəssisə və təşkilatların olmasına edilən istinadlar… onun vətəndaşlıq passivliyinə, ictimai həyata biganəliyinə, mədəniyyətsizliyinə haqq qazandıra bilməz" (2, 13-14). Başqa sözlə, hüquq mədəniyyətinin müvafiq səviyyəsi olmadığı halda insan öz hüquq və azadlıqlarını tam mənada realizə etməyə malik ola bilmir.

Bu gün cəmiyyətdə vətəndaşların hüquq mədəniyyətinin yüksək səviyyəsinin təmin olunması çox aktual problemdir. Bu, hüquqi tərbiyə sahəsində aydın dövlət siyasətinin yeridilməsi, müvafiq tədbirlərin həyata keçirilməsi üçün sistemli elmi yanaşmanın hazırlanmasını zəruri edir. 12 noyabr 1995-ci il tarixində Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi bu istiqamətdə mühüm başlanğıc olmuşdur. Yeni Konstitusiyanın müddəaları dövlət orqanlarının sisteminin normativ cəhətdən təsdiqlənməsi, cəmiyyətin

gələcək inkişaf yollarının müəyyənləşdirilməsi ilə yanaşı, insan haqlarının genişlənməsinə yönəldilmiş pozitiv hüquq düşüncəsinin bərqərar olunması baxımından əhəmiyyətlidir.

Hal-hazırda Azərbaycan Respublikasının Konstitusiyasında və cari qanunvericiliyində müasir hüquq düşüncəsi və hüquq mədəniyyətinin əsasları əks olunur. Bunlar vətəndaşların hüquq düşüncəsinin, subyektiv hüquqlar, vəzifələr və məsuliyyət haqqında əsaslandırılmış, ədalətli mülahizələrinin, təsəvvürlərinin formalaşmasına böyük təsir göstərirlər.

Konstitusiya normaları vətəndaşların mənəvi hisslərinə və siyasi görüşlərinə müsbət təsir göstərirlər. Əhalinin hüquq savadı, Konstitusiya müddəaları barədə geniş məlumata malik olması insan hüquq və azadlıqlarının təmin edilməsi üçün önəmlidir. Həyat təsdiq edir ki, müasir mərhələdə Azərbaycan cəmiyyətinin demokratik əsaslarının formalaşması bilavasitə yüksək dərəcəli hüquq düşüncəsinin formalaşdırılması məsələsi ilə sıx bağlıdır. Bu, yalnız Konstitusiya və cari qanunvericiliyin müddəalarının əsaslarını bilməklə deyil, həm də praktik fəaliyyətdə bunların göstərişlərinə əməl etməkdir.

İnsan hüquq və azadlıqlarının Azərbaycan dövləti tərəfindən ali dəyər kimi tanınması və təmin edilməsi təbiidir, çünki müasir siyasi-hüquqi doktrinada və təcrübədə insan haqları konsepsiyasının müstəsna yeri xüsusi qeyd olunur (3, 57). Lakin bununla yanaşı, sıravi vətəndaşların və dövlət qulluqçularının insan hüquq və azadlıqlarına dair Konstitusiya normalarının dərk edilməsi vacibdir. Bu məsələnin praktiki aspekti peşəkar hüquqşünaslara münasibətdə daha aktualdır. Hüququn prinsiplərini, aksiomalarını bilməsi kifayət olan əhalidən fərqli olaraq, hüquqşünaslar yaxşı peşəkar biliklərə malik olmalı, o cümlədən konstitusiya və cari qanunvericiliyi yaxşı bilməlidirlər. Bu gün hüquqşünaslara, xüsusən də hakimlərə daha tez-tez Konstitusiya normalarına istinad etmək lazım gəlir, belə ki, Azərbaycan Respublikası Konstitusiyasının 147-ci maddəsinin II hissəsinə uyğun olaraq ölkə Konstitusiyası bilavasitə hüquqi qüvvəyə malikdir.

İnsan hüquq və azadlıqlarının təmin edilməsi xeyli dərəcədə əhalinin, dövlət və yerli özünüidarə orqanlarında çalışan qulluqçuların hüquq mədəniyyətinin səviyyəsi ilə müəyyən edilir. Ayrı-ayrı şəxslər tərəfindən dünya və milli dövlət-hüquq təcrübəsi ilə əldə edilmiş hüquqi dəyərlərin mənimsəmə dərəcəsi hüquq düşüncəsində daha tam əks olunur.

Əhalinin hüquq düşüncəsinin səviyyəsi insan hüquq və azadlıqlarının dəyəri, hakimiyyətin bölgüsü, hüququn aliliyi, siyasi və ideoloji plüralizm, milli qanunvericiliyə daxil olmuş və Azərbaycan Respublikasının demokratik inkişafının əsas istiqamətlərini müəyyən edən digər hüquqi prinsiplərin ayrı-ayrı vətəndaşlar tərəfindən dərindən mənimsənilməsindən asılıdır.

Yüksək hüquq düşüncəsi hüquqi dövlətin mühüm cəhətidir. Cəmiyyətdə hüquq düşüncəsinin aşağı səviyyədə olması vətəndaşları hüquqi davranışına bilavasitə təsir edir və bu zaman vətəndaşların ictimai həyatda aktiv fəaliyyəti, fəallığı zəif müşahidə olunur. Yüksək hüquq düşüncəsi hüquqi dövlətin və

vətəndaş cəmiyyətinin formalaşmasına xidmət edir. Bu səbəbdən şəxsiyyətin hüquqlarının təmin edilməsi üçün dövlət vətəndaşların hüquq düşüncəsinə böyük diqqət yetirir. Bundan əlavə, “ictimai həyatın daha da demokratikləşdirilməsi və hüquqi sosial dövlət yaradılmasına yönəldilmiş dövlət kursu hüquq düşüncəsindən vətəndaşın hüquqi əhəmiyyətli davranışını tənzimləməyin sosial vasitəsi kimi istifadə etməyi daha çox nəzərdə tutur”(4, 143).

Qeyd etmək lazımdır ki, insanın hüquq düşüncəsi doğulduğu andan yaranmır. O, insanın bütün həyatı ərzində formalaşır. Hüquq düşüncəsinin formalaşması hüquq subyektliyi ilə sıx bağlıdır, ancaq onun hədləri ilə məhdudlaşmır. Belə ki, şəxsin hüquq düşüncəsini və davranışını formalaşdıran sistemin əsasında sosial mühit durur. Sosial mühit şəxsin fərdi keyfiyyət və xüsusiyyətlərini nəzərə almaqla cəmiyyətin və ya sosial qrupun öz üzvlərinə təqdim etdiyi bilik və dəyərlərin məcmusudur. Bunlar, əsasən, pozitiv hüquq düşüncəsini formalaşdırırlar, ancaq sosial mühitin ayrı-ayrı elementləri müəyyən şəraitdə cəmiyyətin ali məqsədlərinə zidd olan hüquq düşüncəsinin formalaşmasına təkan verə bilərlər.

Fərdin hüquq düşüncəsinin inkişafı əsasən onu əhatə edən sosial mühitin transformasiyası ilə şərtlənir. Nəzərə almaq lazımdır ki, fərdi əhatə edən xarici mühit yalnız maddi sərvətlərdən deyil, həmçinin müəyyən ideoloji, sosial-psixoloji və digər elementlərdən ibarətdir. Məsələn, gənclərə münasibətdə subyektiv faktorun təsiri orta və yaşlı nəslin nümayəndələrinə nisbətən daha yüksək ola bilər. Gənclərin baxışları formalaşma mərhələsindədir, onların xarici ideoloji və sosial-psixoloji təsirlərə daha çox məruz qalması da bununla izah edilir. Məhz gənclik illərində şəxsin sosial mühitə münasibəti formalaşır. Gənclər orta və yaşlı nəslin nümayəndələri ilə müqayisədə daha çox gücləndirilmiş tərbiyəvi təsir və sosial nəzarət şəraitindədir. Bununla yanaşı, gənclər daha məhdud sosial təcrübəyə malikdir və bu səbəbdən təhrif olunmuş, yanlış informasiyanı həqiqətdən ayırmaq və ona müqavimət göstərmək bacarığı onlarda daha zəifdir.

Şəxsin hüquq düşüncəsinin formalaşması əsasən mikromühitin təsiri altında baş verir. Şəxsin hüquq düşüncəsinin formalaşmasında fərdi psixoloji xüsusiyyətlər də böyük rola malikdir. Lakin psixikanın fərdi xüsusiyyətləri özü-özlüyündə hüquqi əhəmiyyətli davranışın səbəbi deyil, yalnız onun həyata keçməsi üsullarının formalaşmasında iştirak edirlər.

Hüquq düşüncəsinin formalaşmasına təsir göstərən faktorların müəyyən edilməsi problemi hal-hazırda öz aktuallığı ilə seçilir. O, yalnız elmi-nəzəri deyil, həm də praktik xarakter daşıyır və elmi tədqiqatlar çərçivəsində dərin araşdırmaların aparılmasını tələb edir. Şəxsin şüuruna təsir göstərən faktorları bilmək hüquq düşüncəsinin formalaşması üzrə praktik işlərin bəzi istiqamətlərini, hüquqi tərbiyənin təşkili üzrə konkret tövsiyələri müəyyən etməyə imkan verir ki, bu da şəxsiyyətə, sosial mühitə, hüquqi informasiya mənbəyinə və onun qavranması prosesinə şüurlu və məqsədyönlü təsiri nəzərdə tutur. “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının 21 dekabr 2010-cu

il tarixli Konstitusiya Qanununun 65.8-ci maddəsinə əsasən "Normativ hüquqi aktda dövlət orqanlarının informasiya açıqlığını təmin edən normalar əks olunmalıdır. Konkret məsələ üzrə qərar qəbul edilməsində əhəmiyyət kəsb edən informasiyanın fiziki və hüquqi şəxslər üçün qapalı informasiya kimi müəyyən edilməsinə, habelə normativ hüquqi aktda belə informasiyanın əldə olunmasının mümkünlüyünün və qaydasının müəyyən edilməməsinə yol verilmir".

Bütövlükdə hüquq düşüncəsinin formalaşmasına təsir göstərən faktorların iki növünü qeyd etmək lazımdır:

1) fərdi xüsusiyyətləri təmsil edən daxili faktorlar;

2) cəmiyyətin sosial-hüquqi həyatının subyektlərinin fəaliyyətində ifadə olunan xarici faktorlar.

Daxili faktorlara aşağıdakıları aid etmək olar:

- psixi xəstəlik və patologiyaların olması;
- xarakterin özünəməxsusluqları (təsirə düşmə, iradə, temperament və s.);
- əqli inkişaf qabiliyyətlərinin səviyyəsi;
- dəyər təsəvvürlərinin, sosial mühitin təsirinin nəticəsi olan mənəvi aləmin, mənəvi görüşlərin ümumi formalaşma səviyyəsi.

İnsanda şəxsiyyət inkişafına müsbət təsir göstərməyən və cəmiyyətin alqışlamadığı tələbatların (hədsiz maddi tələbat, cəmiyyətin maraq və dəyərlərinə zidd olan ehtiyaclara meyl, tələbat dairəsinin məhdudluğu və s.) üstünlük təşkil etməsi onda hüquqa neqativ münasibətin formalaşmasına gətirir, çünki bu, bir qayda olaraq, nəinki bunların ödənilməsinə təsir göstərmir, hətta bunlara daban-dabana ziddir. Belə tələbatların daşıyıcısı olan şəxs üçün hüquq sərvət deyil, bir növ həyat planlarının yerinə yetirilməsinə maneədir. Hüququn bir çox dəyərləri belə bir şəxs üçün artıq, lazımsızdır, və o, bunları hiss edə, yaşada, qiymətləndirə bilməz.

Hüquqi hallara münasibətin formalaşmasına həmçinin insanın həyat təcrübəsi mühüm təsir göstərir. Bu, hüquqi informasiya mənbəyidir və müxtəlif ictimai münasibətlərdə hüquqi-dövlət hadisələri ilə əlaqənin nəticəsi kimi çıxış edir. O, ətraf mühitə təyinedici münasibəti bacarıq və vərdişlər şəklində möhkəmləndirir (5, 7). İnsana öz tələbatlarını realizə etmək üçün nə qədər hüquq göstərişləri və vasitələri lazım olduğunu onun həyat proqramları və planları göstərir. Həyat proqramı dedikdə subyektin tələbatlarını əks etdirən, onun malik olduğu və ya ehtimal etdiyi şəraitdə ictimai mövqeyinin dəyişdirilməsinə və saxlanmasına yönəldilmiş göstərişlər və qərarlar sistemi başa düşülür.

Şəxsin istənilən həyat proqramı hüquqi elementlərsiz ötüşə bilmir. Hər şeydən əvvəl, onda subyektin konkret sosial-hüquqi statusu ilə müəyyən edilən sosial imkanlar öz əksini tapır. Bundan əlavə, proqram, əsasən, şəxsin hüquqi göstərişlərdən ibarət olan hərəkətlər alqoritmini bilməsini nəzərdə tutur.

Həyat proqramları həyat planlarında konkretləşdirilir və detallaşdırılır. Bunlara müvafiq olaraq, müəyyən davranış tipi həyata keçirilir, şəxsin hüquq düşüncəsinin iradi sahələrinin komponentləri formalaşır. Şəxsin belə xüsusiyyətlərinin formalaşmasının əsasını motivlər, həmçinin maraq, məqsəd və tələ-

batlar təşkil edə bilər. Bunlar hüquqi göstərişlərə əməl etmək vərdişi yaradır.

Motiv insanın hüquq sahəsindəki fəaliyyətinin subyektiv tərəfinin mühüm elementlərindən biridir. Şəxsin öz fəaliyyətində rəhbər tutduğu motivləri bilməklə onun hüquq düşüncəsinin formalaşma səviyyəsini müəyyən etmək olar, bu isə, öz növbəsində, davranışın qanuniliyini müəyyən edir.

Hüquq düşüncəsinin tipi və xarakterindən, şəxsin motivasiyasının səviyyəsindən asılı olaraq, motivlər sabit və birdəfəlik ola bilər.

Hüquq normasının tələblərinə tipik əməl etmə motivləri kimi aşağıdakıları göstərmək olar: hüquqi göstərişlərə əməl etməyin zəruriliyinə daxili inam və tələbat yaradılması; hüquq normalarına əməl etməyin zəruriliyini dərk etmə və öz davranışını şüurlu şəkildə bu tələblərə tabe etmək; dərk etmək və ya cəza tədbirləri qarşısında qorxu gücünə vərdişlərə əməl etmək; qrup maraqlarını başa düşmək; kollektivdə, ailədə öz nüfuzunu itirməmək istəyi; şəxsi maraqların hüquq tələbləri ilə formal uyğunluğu; hüquqi konformizm.

Şəxsin hüquq düşüncəsinə bilavasitə təsir göstərən faktorlara insanın şüurunda baş verən normativ dəyərlərin münaqişəsini aid etmək lazımdır. Bunlar, ən əvvəl, onun tələbatlarının və konkret imkanlarının, bunlara nail olmağın məqsəd və vasitələrinin disbalansı nəticəsində baş verir. Belə ki, hələ qanunu pozmamış, ancaq mənəviyyatsız insan sosial-hüquqi sferada tələbat, maraq və dəyərlərə zidd olan hərəkətlərə daha çox meyillidir, çünki o artıq sosiumun tələblərinə etinasız münasibət vərdişləri qazanmışdır. Buradan da şəxsin hüquq düşüncəsinin vəziyyətinin onun formalaşdırdığı mənəvi aləmdən asılılığı görünür.

Fikrimizcə, müxtəlif səbəblərdən (spirtli içkilərin, narkotik vasitələrin və psixotrop dərmanların qəbulu və s.) kəskinləşən əsəb sistemi pozuntularının və aşağı əqli qabiliyyətin hüquq düşüncəsinin formalaşmasına təsir məsələsi də ayrıca nəzərdən keçirilməlidir. Bəzi mütəxəssislər əqli inkişafı yalnız idrak proseslərinin - qavrama, hafizə və təfəkkürün vəziyyəti ilə əlaqələndirməyə çalışırlar. Lakin insanın əqli inkişafını onun xarakterindən, hiss və motivlərindən, iradəvi proseslərdən ayırmaq düzgün deyildir (5, 219).

Azyaşlılar və yeniyetmələr anadan olduğu gündən etibarən böyüklərin, bütövlükdə cəmiyyətin onlara göstərdiyi biganəliyi ağrılı qarşılayırlar. Belə təəssüratlar incidilən insanların psixikasında toplanıb qalır. Hətta ən əhəmiyyətsiz inciklik belə şüurda iz qoyur ki, bir dəfə qeyri-qanuni və ya arzuolunmaz hərəkətdə özünü biruzə versin. Belə hallar hüquq pozuntuları forması almış münaqişələrə gətirib çıxara bilər. Öz natamamlığını və ya qüsurluluğunu qeyri-şüuri hissetmə bir çox cinayət əməllərinə səbəb ola bilər.

Şəxsin hüquq düşüncəsinə göstərilən təsirin üç istiqamətini qeyd etmək olar:

1) həyat şəraitinin, gündəlik məişətin, ətraf mühitin insana nəzarətsiz, qərəzsiz təsiri;

2) ailə, kollektiv, dövlət və ictimai orqanların məqsədyönlü təsiri;

3) müəyyən inkişaf səviyyəsinə qədər ucalmış intellekt və iradəyə

dayaqlanan özünütərbiyə.

Buna əsaslanaraq, şəxsin hüquq düşüncəsini formalaşdıran sistemin üç elementini ayırmaq olar: 1)bilavasitə hüquqi təsir vasitələri, 2)dolayı hüquqi təsir vasitələri və 3)biliklərin, dəyərlərin ötürülmə vasitələri.

Hüquq düşüncəsinin formalaşmasına kənardan təsir göstərən faktorlar rəsmi (dövlət hakimiyyəti orqanları, təhsil müəssisələri, kütləvi informasiya vasitələri) və qeyri-rəsmi (sosial-demoqrafik qrup, ictimai fəallar) ola bilər. Bundan əlavə, bu təsir düşünülmüş və ya kortəbii ola bilər.

Bir qayda olaraq, şəxsiyyətin həm bütövlükdə cəmiyyətin, həm də sosial qrupların təsiri altında formalaşması əsasən pozitiv hüquq düşüncəsinin yaranmasına təsir göstərir. Ancaq müəyyən şərtlər daxilində sosial mühitin ayrı-ayrı elementləri onda deforomasiya olunmuş hüquq düşüncəsinin formalaşmasına səbəb ola bilər. Məsələn, yetkinlik yaşına çatmamışların cinayət əməllərinə səbəb olan faktorlar sırasında onların şəxsiyyətini formalaşdıran aşağıdakı şərtlər həlledici rol oynayır: ailənin mənfi təsiri, ağır məişət şəraiti, nəzarətsizlik; təhsil və tərbiyə işində qüsurlar; lazımi səviyyədə təşkil edilməmiş istirahət: videoməhsulların neqativ təsiri və s.

Cəmiyyətin ayrı-ayrı üzvlərinin şüuruna və davranışına təsirin ən aktiv faktoru əxlaqi-hüquqi tərbiyədir. Mənəvi və hüquqi tərbiyənin qarşılıqlı əlaqəsi ictimai münasibətlərin inkişafının səviyyəsi ilə bağlıdır. Şəxsin inkişaf səviyyəsini müəyyən edən mənəvi tərbiyə aktiv tərəf kimi çıxış edir və hüquqi tərbiyənin məzmun və xarakterində dəyişikliklər yaradır. Öz növbəsində, hüquq tərbiyəsi də mənəvi tərbiyə ilə qarşılıqlı əlaqəyə girərək aktiv tərəf olur və onu daha yüksək səviyyəyə qaldırır. Tərbiyə cəmiyyətin gənc üzvlərinin baxışlarının müəyyənləşmiş sosial, həmçinin hüquqi normalara uyğunluğunu təmin etməlidir.

Hal-hazırda hüquqi tərbiyə yeni insanın formalaşdırılması məsələsinə xidmət edir, onun əsas məqsədi isə aşağıdakılardan ibarətdir:

- dövlət və hüquq haqqında zəruri bilgilərin çatdırılması;
- cari və aktual dövlət-hüquqi məsələlər üzrə məlumatlandırma; dövlət və hüquqa, qanunçuluq prinsipinə müsbət münasibətin, səhv baxışlara qarşı çıxmaq və onları ifşa etmək bacarığının formalaşdırılması;
- hüquqauyğun davranış vərdişlərinin və bacarıqlarının formalaşdırılması;
- dövlət və ictimai işlərinin idarə edilməsində fəal vətəndaş mövqeyinin tərbiyə edilməsi, dövlət institutlarının gələcəkdə təkmilləşdirilməsi işinə kömək etmək, hüquq pozuntularına fəal mənfi münasibətin tərbiyə edilməsi;
- qanuni maraqların və qanunla müəyyən edilmiş hüquqları fəal müdafiə etmək bacarığının formalaşdırılması və s.

Hüquqi tərbiyə işinin təşkili zamanı onun qanunçuluq vəziyyəti ilə mürəkkəb əlaqəsi nəzərə alınmalıdır. Tərbiyəvi təsirin məzmunu və effektivliyi, onun nəticəsi (ictimai, qrup, fərdi şüurun məzmun tərəfidir) hüquqi davranışın mühüm əhəmiyyətli faktorlarıdır. "Əhalinin hüquqi tərbiyəsi, hüquq yara-

dıcılığı və hüquq tətbiqi elə xüsusi formalardır ki, dövlətin hüquq siyasəti bunlar vasitəsilə realizə edilir. Bu sferaların hər biri üçün öz xüsusi vasitələr toplusu xarakterikdir ki, bunlar vasitəsilə hüquq tənzimləməsi sferasında insanların şüur və davranışına məqsədyönlü təsir göstərilir" (6, 20).

Fikrimizcə, hal-hazırda hüquqi tərbiyə sahəsində müəyyən dərəcədə ziddiyətli vəziyyət yaranmışdır: bir tərəfdən, şəxsiyyətin formalaşdırılmasında hüquqi təsirin zəruriliyi və effektivliyi qəbul edilir, digər tərəfdən isə, mövcud imkanların realizə yollarını əsaslandıran ciddi elmi təlim yoxdur. Belə vəziyyətin aradan qaldırılması, ilk növbədə, hüquqi tərbiyənin məqsəd və vəzifələrinin müəyyənləşdirilməsi və elmi əsaslandırılması ilə bağlıdır. Bu məsələlərin həlli hüquq düşüncəsinin formalaşdırılması və inkişafı sahəsində birinci dərəcəli elmi problemlər sırasına daxildir.

Məlumdur ki, hüquq pozuntuları hüquq düşüncəsindəki naqisliklərlə, ondakı boşluqlarla bağlıdır. Ancaq hüquq düşüncəsinin rolunu mütləqləşdirmək olmaz, çünki onun həm əxlaqi, həm də siyasi əsasları var. Bundan əlavə, şüurun bütün formaları qarşılıqlı əlaqə və qarşılıqlı təsirdə "işləyir". Buna görə də belə bir fikirlə razılaşmaq çətindir ki, şəxsiyyətin cinayətkarcasına davranışının bütün hallarında məhz hüquq düşüncəsinin qüsurları ilə rastlaşırıq. Belə hallar da az deyil ki, cavan adamlar oğurluq, xuliqanlıq və digər hərəkətlərin haqlı olaraq qadağan olunmasını bilə-bilə, bu qadağalara əməl etməyin zəruriliyini başa düşə-düşə yenə də qrup oğurluğunda və ya xuliqanlıq hərəkətlərində iştirak edirlər ki, onları "qorxaq" və ya "satqın" adlandırmasınlar. Belə qanun pozucuları ilə tərbiyəvi iş apararkən cavana oğurluğun ictimai təhlükə olmasından danışmaqdansa (o onsuz da bunu yaxşı bilir və onun üçün oğurluq biabırçı iş olaraq qalmaqdadır), onda cəsarət haqqında, hüquqi və digər kateqoriyaların dəyər nisbəti haqqında düzgün təsəvvürlər formalaşdırmağa çalışmaq lazımdır. Hüquq pozuntularının baş verməsində şəxsiyyətin ümumi yönümü, dəyərlər oriyentasiyaları mühüm rol oynayırlar. Məsələn, şəxs üçün hüquqi dəyərlər xüsusi əhəmiyyət daşımır – o, digər cəhətlərə, özünəməxsus tərzdə başa düşdüyü, əslində isə hüquqi mahiyyət daşımayan etik dəyərlərə üstünlük verir.

Xüsusən, cəmiyyətimizin etik və hüquqi prinsiplərinin birliyini etiraf etməklə yanaşı, hər halda, mənəvi və hüquqi şüuru tam eyniləşdirmək olmaz. Ayrı-ayrı adamların və ya qrupun mənəvi görüşləri qanunun əsasında dayanan əxlaq normalarına həmişə uyğun gəlmir. Belə hallarda müvafiq hüquqi göstərişlərlə tanışlıq konkret hallarda düşüncənin qüsurlu təzahürlərini neytrallaşdıra bilər və hətta təhrif olunmuş təsəvvürlərə düzəliş də edə bilər. Bu halda insan heç olmasa onun və mikromühitin normalarının hüquqazidd olduğuna əmin olmaq imkanı əldə edir.

Bununla yanaşı, unutmaq olmaz ki, ümumsosial normaları bilmək hələ hüquqi göstərişləri bilmək demək deyil. Bu tələblərin çoxu dəqiqləşdirilməlidir. Məsələn, ümumsosial dəyərə malik olan insan həyatını sui-qəsdlərdən qorumaq məqsədilə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin beş mad-

dəsi (120-124-ci maddələr) “adam öldürmə” əməlinin cəzalandırılmasına həsr olunmuşdur. Bundan əlavə, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 36-cı maddəsi zərurət olduqda müdafiə məqsədilə hücum edənin həyatdan məhrum edilməsini qanunazidd əməl kimi nəzərdən keçirmir. Həmçinin cinayətkarı həbs edərkən ona zədə vurulması zərurətdən irəli gələrsə, bu da qanunazidd hesab edilmir. Ancaq bir çox hallarda gənclər qanunun mövqeyində yanılaraq qanun pozuntuları ilə fəal mübarizədə öz borclarını düzgün yerinə yetirmirlər, belə hallarda səhv olaraq elə düşünürlər ki, bədən xəsarətlərinin, özgə əmlakına ziyan vurmağın və s. hərəkətlərin qadağan edilməsi tam mütləqdir. Beləliklə, mənəviyyatsızlıq özü-özlüyündə nəinki cinayətlərə səbəb ola bilər, öz növbəsində, hüquq düşüncəsinin qüsurları də mənəviyyatsız hərəkətlərə səbəb ola bilər, cinayətkarlıqla mübarizəni çətinləşdirə bilər.

Müasir şəraitdə əhalinin hüquq düşüncəsinin yüksəldilməsi həmçinin ictimai və hüquqi informasiyanın geniş yayılmasını ehtiva edir. “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikasının 30 sentyabr 2005-ci il Qanunun 3.0.3-cü maddəsi ictimai informasiyanı “qanunlarla və ya digər normativ hüquqi aktlarla müəyyənləşdirilən ictimai vəzifələrin yerinə yetirilməsi prosesində yaradılan və ya əldə edilən faktlar, rəylər, bilgilər” kimi müəyyən edir. Təbii ki, ictimai informasiyadan fərqli olaraq hüquqi informasiya daha mühüm xarakter daşıyır. Buna baxmayaraq, hüquqi informasiyada əsas diqqət qanunun sanksiyalarına deyil, qanun göstərişlərinin dəqiqliklə və mütləq əməl edliməsinin izahına yönəldilir. Yalnız davranış qaydalarının və onların həllinə görə məsuliyyətin izah edilməsi, faktik olaraq, qanunun zahiri tənzimləyici təsiri deməkdir.

Hal-hazırda vətəndaşların hüquqla, hüquq təlimi ilə sadəcə olaraq tanışlığı deyil, şəxsiyyətə təşkil olunmuş, sistematik, məqsədyönlü təsir forması kimi, hüquq düşüncəsini, hüquq vərdişlərini, aktiv hüquqi davranış vərdiş və bacarıqlarını formalaşdıran hüquq tərbiyəsi mühüm əhəmiyyət kəsb etməkdədir. Qanun haqqında məlumat inandırıcı şəkildə, vətəndaşlara emosional təsir etməklə möhkəmləndirilməlidir.

Hüquq pozuntularının qarşısının alınmasında qanunvericiliyin ümumi xəbərdaredici funksiyası olduqca böyük əhəmiyyət kəsb edir. Hesab edirik ki, şəxsin şüurunda məcburi zərurət kimi əks olunan zahiri davranış tənzimləyicilərinin rolunu nəzərə almaq lazımdır. Burada qüsurlu baxışların, şəxsin bütün davranış sisteminin köklü dəyişdirilməsi dərhal baş verməsə də, həmin şəxs artıq hüquq qaydasını pozmağa cəhd etmir.

Qanunun mətni şəxsə bütövlükdə istiqamətverici təsir göstərir, şəxsin baxışlarını dəyişdirmək, bunları ictimai cəhətdən məqbul etmək, hüquq qaydası çərçivəsində davranışın həyata keçirilməsi üçün şərait yaradır. Əgər həmin məqsəd yerinə yetirilənə qədər cəmiyyətdə bəzi insanları məsuliyyət tədbirləri ilə hüquqazidd hərəkətlər etməkdən çəkindirmək mümkün olarsa, artıq bunu hüququn möhkəmləndirilməsinə xidmət edən amil hesab etmək olar. Ancaq bu yalnız o şərtlə reallaşa bilər ki, hüququn əhəmiyyəti və sanksiyaları haqqında

kifayət qədər hüquqi məlumat vətəndaşların inandırılması ilə möhkəmləndirilsin, bu da faktik olaraq, hər bir cinayətə görə məsuliyyətin, həm də qanunla nəzərdə tutulmuş məsuliyyətin qaçılmazlığı ilə təmin edilir. Bu nöqteyi-nəzərdən yalnız hüquq normasının məzmunu deyil, həm də onun praktik tətbiqi mühüm rol oynayır.

Bununla yanaşı, hüquq düşüncəsinin rolunu yalnız hüquq pozuntusunun baş vermə mərhələsi ilə məhdudlaşdırmaq olmaz. Bu rol olduqca əhəmiyyətlidir və nisbətən erkən mərhələlərdə, o cümlədən hüququ pozmuş şəxsin formalaşması, onun davranış standartları, mikromühitlə qarşılıqlı əlaqəsi zamanı da mühümdür.

Hüquq düşüncəsi kifayət qədər inkişaf etməmiş vətəndaşlar qeyri-standart vəziyyətlərə düşdükdə bunlara düzgün hüquqi qiymət vermək, hüquqa müvafiq alternativ qərarlar qəbul etmək iqtidarında olmur, şəxsi hüquqi vəziyyətlərini düzgün təsəvvür etmir, öz hüquqlarının müdafiəsi üçün qanuni vasitələri bilmir, onlara yardımçı ola bilən dövlət orqanları və ictimai təşkilatlar haqqında məlumata malik deyillər.

Fərdi hüquq düşüncəsinin formalaşdırılmasının əsas yollarından biri hüquq normalarının realizə praktikasının müşahidəsidir. Ünsiyyət prosesində insanlar arasında hüquqi məlumatlarla mübadilə baş verir. Bu mənada normativ hüquqi akt müddəalarının hüquq subyektlərinə çatdırılma kanallarının genişləndirilməsi böyük əhəmiyyət daşıyır. Azərbaycan Respublikasının normativ hüquqi aktları rəsmi dərc edilməlidir. “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanunun 82.2-ci maddəsinə əsasən “Normativ hüquqi aktların rəsmi dərc edilməsi dedikdə, onların mətninin rəsmi dövri mətbu nəşrdə dərc edilməsi yolu ilə, ictimai radio və televiziya kanallarında səsləndirilməsi yolu ilə ümumi diqqətə çatdırılması nəzərdə tutulur. Normativ hüquqi aktların ictimai radio və televiziya kanallarında səsləndirilməsi onların rəsmi dövri mətbu nəşrdə dərc edilməsini əvəz etmir”.

Daha çox üstünlük verilən hüquqi bilik mənbələrinin xarakteri, bunlardan əldə edilən hüquqi məlumatlar hüquqa dair biliklərin, hüquqa və hüquqi hallara münasibətlərin həcm və dərinliyində əsaslı şəkildə əks olunur. Yaşlı və orta nəslin nümayəndələrindən fərqli olaraq, yetkinlik yaşına çatmamış şəxslər obyektiv olaraq hüquqi göstərişləri tam dəqiqliyi ilə bilmirlər. Bu səbəbdən çox zaman praktikada onların davranışı bu və ya digər sosial qrupun hüquq təcrübəsinə əsaslanır. Həmin təcrübə tam mənada hüquq normasına uyğun ola bilər, tam uyğun olmaya və ya tamamilə ona zidd ola bilər. Yaxın ətraf (ailə, dostlar və s.) da qeyri-hüquqi praktika mənbəyi ola bilər; əgər burada hüquq qaydalarının pozulması nəinki qınanmır, hətta bunlara yol da verilirsə, onda cəmiyyətdə müəyyən edilmiş qaydalara biganəlik və ya etinasızlıq atmosferi dəstəklənir. Kiçik sosial qrup etibarsız, qeyri-səhih mənbə kimi çıxış etsə də, hər halda yetkinlik yaşına çatmayanlar üçün hüquqi məlumatlar bazası qismində özünü büruzə verir. Əgər belə hallarda qrupun verdiyi qiymətlər hüquqi qiymətlərdən fərqlənirsə, bir qayda olaraq, üstünlük birinciyə verilir.

Hüquq mühafizə orqanlarının fəaliyyətinin nizam və qaydalarının dərk edilməsi, onlara müraciət edilmə praktikası yalnız vətəndaşların hüquqi informasiyalarının həcminə təsir etmir, həm də onlarda hüquqa və onun tələblərinə, müvafiq orqanlara müəyyən münasibətin formalaşmasına səbəb olur.

Bundan əlavə, vaxtilə qarşısı alınmamış və ya müvafiq qaydada cəzalandırılmamış hüquqazidd əməl ayrı-ayrı vətəndaşların hüquq düşüncəsinə güclü neqativ təsir edə bilər. Səlahiyyətli dövlət orqanlarının işində belə qüsurlar hüququn nüfuzdan düşməsinə təkan verir. Əgər insan hüquqazidd davranışın iştirakçısına çevrilirsə və ya hüquqazidd hərəkətə haqq qazandırırsa, bu amilin mənfi təsiri xeyli arta bilər.

Hüquqazidd praktika nümunələri hüquqazidd görüşləri formalaşdırır və çoxsaylı və rəngarəng hüquqi tərbiyə tədbirlərindən daha təsirli olur. Zənnimizcə, məhz vətəndaşların qavradıqları və qiymətləndirdikləri sosial praktika bu gün onların hüquq düşüncəsinin formalaşmasında həlledici rola malikdir.

F.Y.Səməndərovun fikrincə, "əqli momentin mahiyyəti ondan ibarətdir ki, insan öz şüurunun köməyi ilə konkret dərketmə anına qədər əldə etdiyi nəzəri və təcrübi biliklərin əsasında əhatəsində olduğu mühitin, o cümlədən həmin mühitdə (şəraitdə) baş verən hadisələrin mənasını və mahiyyətini dərk edir və həmin hadisələrin dərk olunan tipik əlamətlərinə əsasən bir hadisəni digərindən fərqləndirmək imkanına malik olur... Davranışın iradəvi tərəfi qarşıya qoyulan məqsədə nail olmaq üçün əqli və fiziki səylərin istiqamətləndirilməsidir. Əgər davranışın əqli momenti yalnız əqli-idrak fəaliyyətindən ibarətdirsə, iradəvi moment həm əqli fəaliyyətdən, həm də əqli fəaliyyətlə idarə olunan fiziki fəaliyyətdən ibarətdir" (7, 52).

İnsan hər zaman əldə olunan hüquqi informasiyaya seçimlə yanaşır. Subyektin hüquqi məzmunlu informasiyanı seçiminə onun yaşadığı, işlədiyi, oxuduğu və asudə vaxtlarını keçirdiyi sosial qrupun rəyi, qiymətləri, mülahizələri mühüm təsir göstərir. Bundan əlavə, eyni bir informasiyanı ayrı-ayrı şəxslər müxtəlif şəkildə mənimsəyirlər və bu, ilk növbədə onların fərdi xüsusiyyətlərindən asılıdır.

İnsan ona hüquqi təbliğat vasitəsilə çatdırılan hüquqi məlumatı həm başqa rəsmi və qeyri-rəsmi kanallardan əldə etdiyi informasiya, həm də şəxsiyyətin özünün kifayət qədər sabit olan bilgilər sistemi ilə uyğunlaşdırır. Həmin bilgilərə şəxsiyyətin idealları, dünyagörüşü, etiqadı, vərdişləri, maraqları, rəhbər tutduğu dəyərlər daxildir.

Bəzən hüquqi göstərişlər insandan elə davranış tələb edir ki, bu onun maddi maraqlarının tam əksinə olur. Bu, normativ hüquqi aktlarındakı qüsurlarla, onlarda köhnəlmiş hüquq normalarının mövcudluğu ilə bağlı ola bilər ki, insan da bunlarla qarşılaşmalı olur. Bəzi halda bu, hüquqi görüşlərin, biliklərin məhdudluğu, insanın tələblərinin ödənilməsində hüququn imkanlarını başa düşməməkdən irəli gəlir. Məhz belə vəziyyət hüquqa dair neqativ münasibəti yaradan amillərə çevrilir.

Yuxarıda göstərilən neqativ halların tam əksinə olaraq təhsil müəssisələri

hüquq qaydasına riayət olunmasını təbliğ edərək maarifləndirici fəaliyyəti həyata keçirilirlər. Şübhəsiz, şəxsiyyətin formalaşdırılmasının əsas mərhələsi orta məktəb təhsilidir. Ümumtəhsil sistemi ilə imperativ normalarla bağlı olan şəxs müxtəlif sosial tənzimləyicilərin təsirinə məruz qalır və zəruri hüquqi biliklər, bacarıq və vərdişlərin məqsədyönlü formalaşdırılmasının obyektinə çevrilir. Beləliklə, tədris fəaliyyəti çərçivəsində müəyyən peşəkar hüquqi informasiyanın təsiri şəxsiyyətin hüquq düşüncəsinin formalaşdırılmasının mühüm mərhələsini təşkil edir.

Hesab edirik ki, hal-hazırda əhalinin hüquq düşüncəsinin səviyyəsinin artırılması istiqamətində həmçinin geniş qısamüddətli hüquqi kursların təşkili vacibdir. Hüquqi təhsil kursları üçün seçilmiş hüquqi informasiya şəxsin hüquq düşüncəsinin səviyyəsinə birbaşa təsir göstərmək iqtidarındadır və bu zaman əvvəlcədən subyektin davranışının hüquqauyğun modelini yaradır. Təhsil sisteminin əsasını təşkil edən bilik və dəyərlərin məcmusu və səviyyəsi, ən əvvəl, sosial-siyasi problemdir. Təsadüfi deyil ki, "Təhsil haqqında" Azərbaycan Respublikasının 19 iyun 2009-cu il tarixli Qanununun 4-cü maddəsi Azərbaycan Respublikasında təhsilin əsas məqsədləri kimi Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirməyi; milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli mütəxəssis-kadrlar hazırlamağı elan edir.

Mütəşəkkil təhsil-tərbiyə prosesi olmayan şəraitdə insana müvafiq təsiri cəmiyyətdə ənənəvi olaraq yaranmış formalar (şəxsin yaşıdlarının təsiri, müxtəlif əyləncə müəssisələrinin fəaliyyəti) göstərir ki, bunların təsirinin isə bəzən hüquqi tərbiyənin qarşıya qoyduğu məqsədlərə uyğun olmaya bilər. Bununla əlaqədar müasir təhsilin yüksək mənəvi və hüquqi dəyərlər əsasında təşkilinin zəruriliyini qeyd etmək lazımdır. Belə ki, "Təhsil haqqında" Qanunun preambulasına əsasən "Azərbaycan Respublikasında təhsil insan hüquqları haqqında beynəlxalq konvensiyalara və Azərbaycan Respublikasının tərəfdar çıxdığı digər beynəlxalq müqavilələrə əsaslanır, təhsil sahəsində milli-mənəvi və ümumbəşəri dəyərlərin prioritetliyi əsasında dünya təhsil sisteminə inteqrasiya olunaraq inkişaf edir".

Zənnimizcə, hüquqi təhsil sistemi şəxsin hüquq düşüncəsinin formalaşmasına o zaman əsaslı təsir göstərə bilər ki, hüquqi tərbiyə prosesinin mərhələliyi, ümumi təhsil sistemində hüquqi tərbiyənin əsaslarının tədrisi təmin olunsun. Başqa sözlə, hüquqi tərbiyə cəmiyyətin hüquq mədəniyyətinin məqsədyönlü formalaşma mexanizminə əsaslanmalıdır. Bu da təbiidir, çünki "təhsil artıq məlum olan biliklərin geniş kütlələrə və ya məqsəddən asılı olaraq əhalinin müəyyən qrupuna çatdırma (öyrətmək, mənimsətmək) üçün təşkil olunmuş geniş miqyaslı ictimai prosesdir" (9, 12).

Fikrimizcə, hüquqi tərbiyə fəaliyyəti həmçinin hüquq nəzəriyyəsi tərəfindən müəyyənləşdirilmiş qanunauyğunluqlara əsaslanmalı və onları nəzərə almalıdır. Müasir şəraitdə hüquqi təhsil sistemində insan faktorunun əhəmiyyəti artır ki, bu da hüquq normaları ilə tənzimlənmiş təhsil fəaliyyətində subyektin rolunun artmasını təsdiqləməyə əsas verir.

Müasir şəraitdə hüquq düşüncəsini formalaşdıran mənbələrə kütləvi informasiya vasitələri (televiziya, radio, İnternet) aid edilir ki, bunların da təsiri həm pozitiv, həm də neqativ ola bilər. Belə ki, müasir dövrdə kütləvi informasiya vasitələrində bu və ya digər dövrlər orqanların fəaliyyətinə dair bir-birə zidd məlumatlar yayımlana bilər. Bu onunla bağlıdır ki, həmin informasiya müəlliflərinin hüquqa dair biliklərinin səviyyəsi fərqli olması səbəbindən bəzən heç bir əsas olmadan, müvafiq hüquqi göstərişlər təhlil edilmədən yeni normativ hüquqi aktların, müvafiq orqanların fəaliyyəti yanlış şərh edilir, hakimlərin və ayrı-ayrı vəzifəli şəxslərin işlərinə etinasız qiymət verilir ki, bu da insanların şüurunda neqativ ideyaların formalaşmasına gətirib çıxarır. Başqa sözlə, hüquq düşüncəsi və hüquq mədəniyyətinin yüksək səviyyəsinin göstəricisi yalnız hüquqların genişliyi və təminatı, hüquq mühafizə fəaliyyətinin səviyyəsi deyil, həm də hüquqi baxışların yüksək inkişafı, hüquqi təhsilin və tərbiyənin səviyyəsidir (10, 21).

Təəssüf ki, pozitiv hüquqi məzmunlu proqram və çap olunmuş materialların sayı kifayət qədər çox deyil. Bəzən axşam saatlarında televizor ilə nümayiş olunan proqramlarda və informasiya mənbələrində sensasiya xarakterli kriminal informasiyaya üstünlük verilir. Halbuki, fikrimizcə, təlim-tərbiyə verilişlərini efirdə geniş auditoriya kütləsinin baxa biləcəyi saatlarda yerləşdirmək məqsədəuyğun olardı.

Müasir kütləvi informasiya vasitələri, xüsusən də televiziya, İnternet şəbəkəsi çox vaxt ayrı-ayrı insanların şüurunda belə bir fikrin formalaşmasına təkan verir ki, guya hüquq yalnız güc və məcburiyyət olan yerdə mövcuddur və məhz məcburiyyət ictimai münasibətlərin tənzimlənməsində həlledici rol oynayır. Hesab edirik ki, hal-hazırda kütləvi informasiya məkanında hüququn əsaslandığı digər üsulun – inandırmanın da geniş imkanlarından faydalanmaq lazımdır.

İnsanların fərdi hüquq düşüncəsinin formalaşmasına və inkişafına onların yaxın qoyumlarının, ailə üzvlərinin, dostlarının hüquq sahəsindəki davranışı və hüquq düşüncəsi böyük təsir göstərir. Bu, hüquq elmində hamılıqla qəbul edilmiş faktdır.

Konkret həyati şərait şəxsin hüquq sahəsindəki davranış seçimi zamanı rəhbər tutduğu meyarları müəyyənləşdirir. Fikrimizcə, bunlar aşağıdakılardan ibarətdir:

- arzu olunan nəticənin dəyəri;
- müəyyən məqsədə nail olmağa maneçilik törədən, onu çətinləşdirən ayrı-ayrı halların əhəmiyyəti;
- məqsədə nail olmaq üçün effektiv hüquqi üsullar və s.

Məlumdur ki, hüquq düşüncəsinin formalaşmasında mühüm yeri ailə tutur. Bioloji, iqtisadi, sosial sistem kimi, ailə ictimai təcrübənin yeni nəslin nümayəndəsinə ötürülməsinin mənbəyi və bilavasitə həlqəsidir. Lakin hal-hazırda bu ənənəvi funksiyanın tam yerinə yetirilməsində bəzi çətinliklər mövcuddur. Belə ki, digər ölkələrdə olduğu kimi Azərbaycanda da natamam ailələrin sayı artır, valideyn hüquqlarından məhrum edilmiş şəxslərin sayı çoxalır ki, bu da ailənin tərbiyəvi potensialının aşağı düşməsinə səbəb olur.

Hüquq düşüncəsinin formalaşması arzuedilməz vəziyyət kimi müasir jurnallarda və nümayiş etdirilən filmlərdə şux boyalarla cinayətkar həyat tərzinin verilməsidir. Son onilliklərdə geniş yayılmış bəzi videofilmlər və kompüter oyunları zorakılıq və qəddarlığı təbliğ edən kino və televiziya verilişləri ilə birlikdə nəinki fərdin şüuruna, hətta şüuraltına da neqativ təsir göstərir ki, bu da sonradan hüquqazidd davranış üçün zəmin yaradır.

## ƏDƏBİYYAT


1. Медведев В.А. Правовая культура российского общества: особенности и тенденции развития: Автореф. дис… канд. юрид. наук. Казань, 2004, 26 с.
2. Зорченко Е.А. Воспитание правовой культуры молодежи. Минск: Беларусь, 1986, 80 с.
3. Wacks R. Philosophy of Law: A Very Short Introduction. N.Y.: Oxford University Press, 2006, 127 p.
4. Баландин А.А. Становление и развитие категории «правосознание» в отечественной юриспруденции // Проблемы права, 2009, № 1, с.140-143.
5. Меликова М.Ф. Правовое воспитание и самовоспитание личности в СССР / Право и правовая идеология (тематический сборник научных трудов). Баку: Азербайджанский Государственный Университет, 1986, с.3-9.
6. Əliyev B.H., Əhmədova Y.Ə. Əqli inkişafın məhkəmə ekspertizası haqqında / Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinə həsr olunmuş elmi konfransın materialları. II cild (humanitar və sosial-siyasi elmlər). BDU, 1998, s.218-219.
7. Стреляева В.В. Правовое воспитание в условиях становления правового государства: Автореф. дис… канд. юрид. наук. М., 2006, 26 с.
8. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin kommentariyası / F.Y.Səməndərovun redaktəsi ilə. Bakı: Digesta, 2006, 960 s.
9. Xəlilov S.S. Təhsil sistemi: nəzəriyyə və praktika. Bakı: Azərbaycan Universiteti, 1999, 172 s.
10. Семитко А.П. Правовая культура социалистического общества: сущность, противоречия, прогресс. Свердловск: Урал. ун-т, 1990, 176 с.


## ПРЕДПОСЫЛКИ РАЗВИТИЯ ПРАВОСОЗНАНИЯ

**И.Х.ДЖАФАРОВ**

### РЕЗЮМЕ

В статье, в первую очередь, отмечается, что в настоящее время в Конституции и текущем законодательстве Азербайджанской Республики отражены основы позитивного правосознания. Они оказывают большое воздействие на формирование у граждан правосознания, правильных суждений и представлений о субъективных правах, юридических обязанностях и ответственности.

В соответствии с позицией автора, высокий уровень правосознания обуславливается не только широким перечнем прав, совершенной организацией правоприменительной деятельности, но и состоянием правового образования и воспитания.

**Ключевые слова:** сознание, правовой, развитие, социальный, регулирование, формирование, культура

**PREREQUISITES FOR THE DEVELOPMENT OF LEGAL CONSCIOUSNESS**

**I.H.JAFAROV**

**SUMMARY**

The article notes that the present Constitution and current legislation of the Republic of Azerbaijan reflect the positive fundamentals of legal consciousness. They have a large impact on the formation of citizens' sense of legal consciousness, the perceptions of subjective rights, legal obligations and responsibilities.

According to the author, a high level is due not only to an extensive list of rights and perfect organization of law enforcement, but also the state of legal education and training.

**Key words:** consciousness, legal, development, social, regulatory, formation, culture